DAŞKƏSƏN

Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, Mən Azərbaycanlıyam!
Heydər Əliyev

Təsisçi: Daşkəsən Rayon İcra Hakimiyyəti və qəzetin jurnalist kollektivi

Qəzet 1933-cü ildən çıxır | № 11 (5804) | 31 Dekabr 2016-cı il | Qiyməti 60 qəpik

12 DEKABR AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN ƏBƏDİYYƏTƏ QOVUŞMASININ 13-CÜ İLDÖNÜMÜDÜR

MÜASİR, MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN MEMARI VƏ QURUCUSU, DÜNYA ŞÖHRƏTLİ SİYASİ XADİM, ULU ÖNDƏR HEYDƏR ƏLİYEV AZƏRBAYCAN XALQININ QƏLBİNDƏ DAİM YAŞAYACAQDIR!

"BİZ XOŞBƏXTİK Kİ, XALQIMIZ AZADLIĞA ÇIXIBDIR. BİZ XOŞBƏXTİK Kİ, BİZİM ÖZÜMÜZÜN MÜSTƏQİL DÖVLƏTİMİZ VAR. BİZ XOŞBƏXTİK Kİ, AZƏRBAYCAN DÜNYA BİRLİYİNDƏ, DÜNYA DÖVLƏTLƏRİ İÇƏRİSİNDƏ, BÜTÜN BEYNƏLXALQ TƏŞKİLATLARDA ÖZÜNƏ YER TUTUB VƏ AZƏRBAYCAN HƏR YERDƏ BÖYÜK GƏLƏCƏYİ OLAN NÜFUZLU BİR ÖLKƏ, AZƏRBAYCAN KİMİ TANINIR. MÜSTƏQİL, AZAD AZƏRBAYCANIMIZA GÖZƏL GƏLƏCƏKLƏR ARZU EDİRƏM".

HEYDƏR ƏLİYEV
AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ

DAŞKƏSƏN RAYONUNDA XALQIMIZIN ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN ƏZİZ XATİRƏSİ DƏRİN EHTİRAMLA YAD EDİLMİŞDİR

Zaman keçdikcə və biz dünyada baş verən siyasi prosesləri dərk etdikcə Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyevin xalqımız və dövlətçiliyimiz üçün nə qədər cəsarətli addımlar atdığını, nə qədər ağır zəhmət, məşəqqət, fədakarlıq hesabına müstəqil Azərbaycan dövlətini qurub yaratdığını bir daha özümüz üçün aydınlaşdırmış oluruq.

ƏHƏD ABIYEV
DAŞKƏSƏN RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI

Ümummilli Lider Heydər Əliyevin vəfatının 13-cü ildönümünə daşkəsənlilər yüksək səviyyədə hazırlıqla gəlmişdilər. Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı cənab Əhəd Abıyevin sərəncamına əsasən tədbirlər planı hazırlanmış, dekabr ayının 1-dən 10-dək rayonda anım günü dahi liderin ruhuna hörmət və ehtiram əlaməti olaraq, silsilə tədbirlərlə qeyd edilmişdir.

Rayonun ümumtəhsil məktəblərində, təhsil, səhiyyə müəssisələrində, idarə və təşkilatlarında, inzibati ərazi dairələri üzrə nümayəndəliklərində anım tədbirləri keçirilmişdir. Ümumtəhsil məktəblərində inşa yazı, rəsm müsabiqələri, Ulu Öndərin həyat və fəaliyyətinə həsr olunmuş disputlar, kompozisiyalar, dəyirmi masalar, təhsil müəssisələrində kitab sərgiləri, foto stendlər, oxucu konfransları və həyata keçirilən digər anım tədbirləri daşkəsənlilərin Ulu Öndər Heydər Əliyevə, onun müqəddəs ideyalarına hörmət və ehtiramı olaraq iştirakçıların ürəyindən xəbər vermiş, onları Heydər Əliyev şəxsiyyətinin nümunəsində Vətənə, xalqa, torpağa daha sədaqətli olmağa ruhlandırmışdır.

Qeyd edilən tədbirlərin davamı olaraq dekabr ayının 12-də Daşkəsən Rayon İcra Hakimiyyəti və YAP Daşkəsən rayon təşkilatının birgə təşkilatçılığı ilə rayon ictimaiyyətinin 2000-dən çox nümayəndəsi Ulu Öndərin rayon mərkəzində ucalan abidəsi önünə hüznlü musiqi sədaları altında gül-çiçək dəstələri düzmüş, dahi rəhbərə sonsuz hörmət və ehtiramlarını bir daha nümayiş etdirmişlər.

Gülqoyma mərasimindən sonra tədbir iştirakçıları Heydər Əliyev Mərkəzinə baş çəkmiş, burada Ulu Öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərinin əks olunduğu fotolara baxmışlar.

Rayon İcra Hakimiyyətinin inzibati binasında rayon ictimaiyyətinin bütün təbəqələrindən olan nümayəndələrin iştirakı ilə səmimi bir atmosferdə yığıncaq da keçirilmişdir.

Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı cənab Əhəd Abıyev yığıncaq iştirakçılarını salamladıqdan sonra ilk öncə Müasir Azərbaycanın memarı, qurucusu, Ulu Öndərimiz Heydər Əliyevin əziz xatirəsini bir dəqiqəlik sükutla yad etmələrini xahiş etmişdir.

Ümummilli Liderin dövlət quruculuğu yolunda gərgin və şərəfli fəaliyyətinin müxtəlif dövrlərini özündə əks etdirən "Böyük ömrün anları" sənədli filminin nümayişinin ardınca XX əsr Azərbaycan tarixinin ən parlaq siması, qüdrətli şəxsiyyəti olan Ulu Öndərimiz Heydər Əliyevin həyat və fəaliyyətindən, onun xalqımız və dövlətimiz üçün gördüyü taleyüklü məsələlərdən danışan Rayon İcra Hakimiyyətinin Başçısı cənab Əhəd Abıyev dərin məzmunlu nitq söyləmişdir. O, çıxışında demişdir:

" - On üç il bundan qabaq Vətən öz böyük oğlunu itirmişdir. Ancaq bu on üç ilin hər bir ili Heydər Əliyev siyasətinin təntənəsi ili olmuşdur. Çünki bu on üç ildə Heydər Əliyev siyasəti çox hörmətli möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilmiş, Azərbaycan beynəlxalq aləmdə iqtisadi gücü və nüfuzu ilə böyük şöhrət qazanmışdır.

Ötən 13 il müddətində biz Ümummilli Lider Heydər Əliyevin böyüklüyünün bir daha şahidi olduq. Ötən hər gün Ulu Öndərin nə qədər böyük bir insan, şəxsiyyət, siyasətçi, dövlət xadimi, dahi olduğunu bir daha göstərdi. Zaman keçdikcə və biz dünyada baş verən siyasi prosesləri dərk etdikcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xalqımız və dövlətçiliyimiz üçün nə qədər cəsarətli addımlar atdığını, nə qədər ağır zəhmət, məşəqqət, fədakarlıq hesabına müstəqil Azərbaycan dövlətini qurub yaratdığını bir daha özümüz üçün aydınlaşdırmış oluruq.

Türkiyənin tanınmış dövlət xadimi Bülənt Ecevit siyasət nəhəngi Heydər Əliyevin yalnız Azərbaycan xalqı qarşısında deyil, bütün türk dünyası qarşısında xidmətlərini qiymətləndirərkən böyük fəxrlə demişdir: "Qüdrətli öndərsiz bir millət heç nəyə nail ola bilməz. Heydər Əlirza oğlu Atatürk qədər qüdrətli bir türkdür. Heydər Əlirza oğlu min ildən bir yetişən dahilərdəndir".

Ulu Öndər Heydər Əliyev həm keçmiş sovet, həm də müstəqillik dönəmində Azərbaycanın inkişafı, onun dünya dövlətləri cərgəsində layiqli yerini tutması üçün böyük əmək sərf etmiş, mənsub olduğu xalqın və eyni zamanda özünün adını əbədi olaraq tarixə yazmışdır.

Ulu Öndərin Azərbaycana rəhbərliyinin 30 ilinin az qala üçdə ikisi sovet dövrünə təsadüf etmişdir. Heydər Əliyev məhz bu illərdə, sovet imperiyasının sərt rejiminə baxmayaraq, Azərbaycanın gələcək müstəqilliyi üçün göstərdiyi misilsiz xidmətləri ilə tarixdə layiqli yerini qazanmışdır.

Bu parlaq şəxsiyyətin həmin illərdəki fəaliyyətini araşdırdıqda Vətənini hədsiz dərəcədə sevən bir insanın ölkəsinin tarixinə, mədəniyyətinə, ədəbiyyatına son dərəcə böyük sevgi və hörmət ilə yanaşdığını görür və heyrətlənməyə bilmirsən. Ulu Öndərin xidmətlərini təhlil etdikdə aydın olur ki, bu dərin zəka sahibi hələ dövlət təhlükəsizlik orqanı kimi çox sərt rejimli bir strukturda çalışanda belə milli mənsubiyyəti ilə fəxr etmiş, qəlbində Azərbaycanın müstəqillik arzularını yaşatmışdır. Bu arzular Ulu Öndərin bütün fəaliyyəti boyu çox aydın şəkildə özünü göstərmişdir.

Heydər Əliyevin dövlətçilik sərişdəsi, dərin zəkası, fenomenal yaddaşı, insanları idarə etmək bacarığı həmin vaxt SSRİ-nin tərkibində olan bütün xalqlar tərəfindən yüksək qiymətləndirilmişdir.

Ümummilli Liderimizin keçmiş Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitənin Siyasi Bürosunun üzvləri arasında xüsusi yeri hətta adi vətəndaşlar tərəfindən qürurla qeyd edilir, SSRİ-nin gələcək rəhbəri vəzifəsinə namizədlər sırasında birinci Heydər Əliyevin adı çəkilirdi. SSRİ dağıldıqdan sonra xalq arasında belə bir fikir dolaşırdı ki, əgər müəyyən məqamlarda SSRİ-nin hakimiyyət sükanı arxasında dahi Heydər Əliyev kimi güclü xarakterə malik insan olsaydı, bu qədər faciələr baş verməyəcəkdi. Bu, sovet imperiyası süquta uğrayandan sonra bütün postsovet məkanında daha çox səslənən ən populyar fikirlərdən biri idi. Çünki bu şəxsiyyətin nüfuzu, gücü və xalqın ona məhəbbəti hamıya məlum idi. Amma belə olmadı və Sovet İttifaqı dağıldı. Sovet respublikalarından ən çox zərər çəkəni isə məhz Azərbaycan oldu.

Heydər Əliyevin böyük nüfuzu Mərkəzi Komitənin sonuncu Baş Katibi Mixail Qorbaçova və onun erməni əlaltılarına öz çirkin planlarını həyata keçirməyə mane olurdu. Heydər Əliyev M.Qorbaçovun haqsız təzyiqlərinə baxmayaraq, onun yeritdiyi siyasi xətti, xüsusilə Qafqazda apardığı siyasəti kəskin şəkildə tənqid edir, yetişməkdə olan Qarabağ problemi haqqında xəbərdarlıq edirdi.

Heydər Əliyev siyasi hakimiyyətdən uzaqlaşdırıldıqdan sonra hadisələr sürətlə cərəyan etməyə başladı. Minlərlə azərbaycanlı əzəli torpaqlarından, yurd-yuvalarından qovuldu.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet qoşunları Bakını işğal edib yüzlərlə insanı güllələboran etdi.

Bu ağır faciənin acısına dözməyən Heydər Əliyev heç bir təzyiq, təqib və təhdidə məhəl qoymadan, Moskvanın mərkəzində hiddət və qəzəbini bütün dünyaya bəyan etdi.

Haqqın və ədalətin bərpası üçün isə tarixə elə də böyük vaxt lazım gəlmədi. Azərbaycan xalqı öz sevimli oğlunu, böyük dahi və parlaq şəxsiyyət Heydər Əliyevi ölkəni idarə etməyə çağırdı. Bu təkidli çağırışın arxasında sonsuz xalq etimadı, millətin məhəbbəti və sarsılmaz inamı dayanırdı.

Ulu Öndərin qayıdışı yenicə müstəqillik qazanmış Azərbaycanın az qala siyasi xəritədən silinmək ərəfəsində olduğu bir dövrə təsadüf etdi. Ermənistan silahlı birləşmələri Azərbaycan ərazilərinin böyük bir hissəsini işğal etmiş, iqtisadiyyat iflasa uğramış, silahlı qruplaşmalar arasındakı çəkişmələr vətəndaş müharibəsi həddinə çatmışdı. Xalqın son ümid yeri Heydər Əliyev idi.

Dünyanın siyasi axarını, nəhəng dövlətlərin maraqlarının kəsişən nöqtələrini çox gözəl bilən Heydər Əliyev dərin zəkası, siyasi uzaqgörənliyi və polad məntiqi ilə hər şeyi yerinə qoya bildi. Təcrübəli dövlət xadiminin böyük səyləri nəticəsində ölkədə ictimai-siyasi sabitlik bərpa olundu, ermənilər tərəfindən torpaqların işğalının qarşısı alındı, atəşkəs əldə edildi, Azərbaycanın yaxın gələcəkdə dünya siyasətində geosiyasi mövqeyini müəyyən edəcək siyasi-iqtisadi konsepsiya işlənib hazırlandı. Heydər Əliyev müstəqil Azərbaycanı siyasi fırtınaların cəngindən alıb, onun strateji mövqelərini bərpa etdi. Ona sabit ölkə imici qazandırdı.

Bütün bunlarla yanaşı, Heydər Əliyev çox böyük məharətlə ölkəmizin neft strategiyasını işləyib hazırladı. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı. Bunun çox böyük iqtisadi dəyəri ilə yanaşı, siyasi əhəmiyyəti ondan ibarət idi ki, Azərbaycan dünya iqtisadi siyasətinin maraq mərkəzinə çevrildi. Heydər Əliyevin qətiyyətinin təntənəsi olan "Əsrin müqaviləsi" müstəqil ölkəmizi dünyanın qüdrətli dövlətlərinin mühüm iqtisadi tərəfdaşına çevirdi.

Ulu Öndərin neft strategiyasının yeni bir mərhələsi Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsi oldu. Bəzi dövlətlərin qısqanclıqla yanaşdıqları və hətta reallaşacağına şübhə etdikləri Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsi 2006-cı ildə işə salınanda BP şirkətinin prezidenti Con Braun onun əhəmiyyətindən danışaraq deyirdi: "Bakı-Tbilisi-Ceyhan neft borusunun fəaliyyətə başlaması dünyanın enerji xəritəsini dəyişdi". Amma dünyanın enerji xəritəsini dəyişən Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsi yox, onun yaradıcısı Azərbaycanın dahi oğlu Heydər Əliyev oldu.

Ümummilli Lider müstəqil Azərbaycan iqtisadiyyatının təkcə neft sənayesi üzərində qurulmasının da gələcəkdə arzu olunan nəticələr verməyəcəyini bilirdi. Məhz ona görə də neft gəlirləri hesabına iqtisadiyyatın digər sahələrini inkişaf etdirməyin, infrastruktur layihələrinin reallaşdırılmasına çalışmağın vacib olduğunu qeyd edir və buna səy göstərirdi.

Postsovet məkanında ilk dəfə olaraq Azərbaycanda Heydər Əliyevin göstərişi ilə torpaq islahatına başlandı. Kolxoz və sovxozların şəxsi və fermer təsərrüfatlarına çevrilməsi kənd təsərrüfatının inkişafında yeni üfüqlər açdı.

Ulu Öndərin təşəbbüskarlığı, qətiyyətli və prinsipial qərarları Azərbaycan iqtisadiyyatını tədricən dirçəltdi, ona yeni nəfəs verdi. Qısa müddətdə bazar iqtisadiyyatına keçidin qanunvericilik bazası formalaşmağa, iqtisadi həyatımızda sahibkarlıq fəaliyyəti yaranmağa başladı.

Böyük dövlət xadimi Heydər Əliyev yüksək diplomatik səviyyə nümayiş etdirərək, öz şəxsi nüfuzu sayəsində Azərbaycanı beynəlxalq siyasətin diqqət mərkəzinə çəkir, tanıdır və başqalarını ona inanmağa, hörmət etməyə, sözünü eşitməyə məcbur edirdi.

1995-ci ildə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi. Ümummilli Liderin təşəbbüsü və rəhbərliyi ilə hazırlanan bu ali sənəd Azərbaycanda insan hüquq və azadlıqlarının qorunması və təmin olunmasında yeni mərhələ açdı. 1998-ci ildə Şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm hökmü ləğv olundu.

Heydər Əliyev üçün müstəqil Azərbaycan fəlsəfəsinin təməlində azadlıq, demokratiya, iqtisadi tərəqqi, sosial ədalət və rifah dururdu. Bu fəlsəfə onun memarı olduğu müstəqil Azərbaycanda öz real əksini tapdı.

Ulu Öndər özünün başladığı nəhəng işlərin uğurlu icrasının davamını kimin təmin edə biləcəyini də müəyyənləşdirdi. Fiziki imkanlarının tükəndiyi bir vaxtda həmişə inandığı və etibar etdiyi xalqına müraciət ünvanladı. Ulu Öndərin müraciətində deyilirdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Tarix dahi şəxsiyyətin uzaqgörənliyini yenə təsdiqlədi. Bunun üçün elə də böyük vaxt lazım olmadı. Əməli fəaliyyəti, xalqına və Vətəninə məhəbbəti ilə ümumxalq sevgisi qazanan möhtərəm Prezident cənab İlham Əliyev artıq üçüncü dövr üçün dövlətimizin başçısı seçilmişdir və Ulu Öndər tərəfindən qarşıya qoyulmuş vəzifələrin öhdəsindən layiqincə gəlir.

Ulu Öndər Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı möhtərəm Prezident cənab İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycanın regionun lider dövlətinə çevrilməsi, beynəlxalq birlikdəki yerini möhkəmləndirməsi, söz sahibi olması dünya miqyasında artıq tam qəbul edilən reallıqdır. Məhz bu uğurlar cənab Prezident İlham Əliyevə xalqın sonsuz rəğbət və hörmətini qazandırmışdır.

Qəti əminliklə deyə bilərik ki, dünyanın ən mötəbər beynəlxalq təşkilatlarının üzvü olan Azərbaycanda əldə edilən bu uğurlar dövlətimizin apardığı düzgün siyasət və xalqımızın zəhməti, əzmi, iradəsi hesabına qazanılmışdır. Əldə edilən nailiyyətlərin və inkişaf yolumuzun ən parlaq nəticəsi ondan ibarətdir ki, bu gün Azərbaycan, sözün əsl mənasında, tam müstəqil dövlətdir. Ölkəmizdə gerçəkləşdirilən siyasət daim xalqın maraqlarına xidmət göstərir və Azərbaycan bu illərdə qazandığı uğur və nəticələrə dayanaraq XXI əsrin daha möhtəşəm tarixini yazmağı, irimiqyaslı və nəhəng vəzifələrin həllini hədəf götürür. Həmin inkişafın başlıca yekunlarından biri də dövlət başçısı cənab İlham Əliyevin bu sözlərində bariz ifadəsini tapmışdır: "Azərbaycan bu illər ərzində həm öz vətəndaşlarına, həm də dünyaya sübut etdi ki, biz müstəqil ölkə, azad xalq kimi yaşayırıq və yaşaya bilərik!"

Daşkəsənlilər yaxşı bilirlər ki, Ulu Öndər həmişə xalqına, Vətəninə bağlı olmuş, öz cəsarəti, müdrikliyi, vətənpərvərliyi ilə xalqımızın keşiyində durmuş, ən çətin anlarda həyatını xalqımızın milli amallarına qurban verməyə hazır olduğunu dəfələrlə sübut etmişdir. Bugünkü müstəqil, demokratik Azərbaycan dövləti Ulu Öndər Heydər Əliyevin yaratdığı şah əsərdir. Bu gün bura toplaşmağımız da ömrünü xalqının xoşbəxtliyinə həsr etmiş böyük, dahi Ulu Öndərin əziz xatirəsinə göstərilən dərin məhəbbət və ehtiramın bir ifadəsidir.

Ümummilli Liderimiz Heydər Əliyevin adı qədirbilən Azərbaycan xalqının qəlbində daim yaşayacaqdır.

Allah Ulu Öndər Heydər Əliyevə rəhmət eləsin!

Əziz Ruhu şad olsun!"

Elmar VÜQARLI
Azərbaycan Yazıçılar Birliyinin üzvü

PREZİDENT CƏNAB İLHAM ƏLİYEVİN AZƏRBAYCAN XALQINA 31 DEKABR – DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ MÜNASİBƏTİLƏ TƏBRİKİ

Əziz həmvətənlər!
Hörmətli soydaşlar!

31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü bütün soydaşlarımızın mənəvi birliyinin rəmzi kimi hər il geniş qeyd olunur. Bu sevimli bayram ərəfəsində sizi ürəkdən salamlayır, hamınıza xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Ümummilli lider Heydər Əliyevin nəsihətlərinə əməl edən Azərbaycan dövləti başqa ölkələrdə məskunlaşmış həmvətənlərimizin taleyinə diqqətlə yanaşır, onların hüquqlarının qorunmasına, milli-mənəvi birlik ideyaları ətrafında təşkilatlanması məsələsinə xüsusi əhəmiyyət verir. Təqdirəlayiq haldır ki, xarici ölkələrdə yaşayan soydaşlarımız da Azərbaycan Respublikası ilə əlaqələrini gücləndirir, doğma Vətənə məhəbbət və sədaqət nümayiş etdirirlər. 2016-cı ilin iyununda Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının IV Qurultayı xaricdə yaşayan həmvətənlərimiz arasında birliyin daha da möhkəmləndirilməsi, diaspor təşkilatlarının fəaliyyətinin genişləndirilməsi yolunda mühüm hadisə oldu. Şübhə yoxdur ki, soydaşlarımız qurultayın qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsi istiqamətində əzmlə çalışacaq, öz qüvvə və bacarıqlarını əsirgəməyəcəklər.

Qürur hissi ilə qeyd edirəm ki, bu ilin oktyabrında Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beş ili tamam olmuşdur. Ötən dövr ərzində yaradılmış iqtisadi potensial, nail olduğumuz sosial tərəqqi və ictimai-siyasi sabitlik dünyada hələ də davam edən qlobal maliyyə-iqtisadi böhranın təsirlərini azaltmağa, ölkəmizi risklərdən qorumağa imkan verir.

Cəmiyyətimizin inkişaf səviyyəsini bu il sentyabrın 26-da keçirilmiş Konstitusiyaya dəyişikliklərlə bağlı referendum bir daha bariz şəkildə göstərdi. Azərbaycan vətəndaşları yüksək siyasi yetkinlik nümayiş etdirərək, dövlətimizin möhkəmlənməsinə, insan hüquq və azadlıqlarının qorunmasına yeni imkanlar açan həmin dəyişikliklərə səs verdilər.

İnanıram ki, bütün soydaşlarımızın əlbir fəaliyyəti, doğma Azərbaycan torpağına sarsılmaz sədaqəti gücümüzü daha da artıracaq, inkişafımıza əngəl törədən yeganə ağrılı problemi - Ermənistanın hərbi təcavüzünü tezliklə aradan qaldırmağa, ölkəmizin ərazi bütövlüyünü bərpa etməyə imkan yaradacaq. Bu ilin aprel ayında Ermənistanın hərbi təxribatı nəticəsində cəbhədə baş vermiş hadisələr zamanı Azərbaycan Silahlı Qüvvələri düşmənin məkrli niyyətlərinin qarşısını qətiyyətlə aldı və torpaqlarımızı istənilən an işğaldan azad etməyə hazır olduğunu sübut etdi.

Azərbaycanın haqlı mövqeyi getdikcə beynəlxalq ictimaiyyətin daha çox dəstəyini qazanır. Ölkəmizin mədəniyyətlərarası dialoqun təşviqinə və qlobal humanitar problemlərin həllinə verdiyi töhfələr, multikultural dəyərlərə hörməti və tolerantlıq ənənələri xalqımıza dünyada dərin rəğbət oyatmışdır.

Hazırda Azərbaycan Respublikası öz inkişafının çox məsuliyyətli bir dövrünə qədəm qoymuşdur. Biz Vətənimizin çiçəklənməsi, qüdrətinin artırılması və suverenliyinin möhkəmləndirilməsi məqsədilə qarşımıza böyük vəzifələr qoymuşuq. Həmin vəzifələrin həlli üçün bütün həmvətənlərimiz, o cümlədən xaricdə yaşayan soydaşlarımız sıx birləşməli, harada yaşamalarından asılı olmayaraq, milli maraqlarımızı qətiyyətlə qorumalı, anti-Azərbaycan dairələrin təxribatçı əməllərinə qarşı prinsipial mübarizə aparmalıdırlar.

Sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə səadət, firavanlıq və bütün işlərinizdə uğurlar diləyirəm.

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 24 dekabr 2016-cı il

"Azərbaycan" qəzeti 23 dekabr 2016-cı il tarixli sayında rayonumuzun 2016-cı ildə əldə etdiyi uğurları barədə məqalə dərc etmişdir.

İlham Əliyevin "Yeni Daşkəsən" layihəsi uğurla reallaşır

Son 13 ildə Azərbaycanın bütün bölgələri dəyişib, inkişaf edib. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində rayonların iqtisadiyyatı daha da möhkəmlənib, əhalinin yaşayış səviyyəsi yaxşılaşıb. Bölgələrdə geniş abadlıq və quruculuq işləri aparılıb. Prezident İlham Əliyevin sərəncam və göstərişləri əsasında həyata keçirilən bu işlər hər bir bölgənin inkişaf strategiyasına uyğun görülüb. Regionlarda səngiməyən abadlıq-quruculuq işləri ölkəmizin kompleks inkişafını təmin edir.

Möhtəşəm quruculuq meydanı

Ölkəmizdə iqtisadi artım daha çox qeyri-neft sektorunun hesabına təmin edilib. Azərbaycan iqtisadiyyatı dünyada müşahidə olunan ağır problemlərin öhdəsindən layiqincə gəlib ki, bu da qarşıdan gələn dövrdə yeni iqtisadi uğurların əldə ediləcəyinə zəmanət verir. Qazanılan uğurlarda isə Azərbaycanın hər bir iqtisadi zonasının, hər bir şəhər və rayonunun böyük rolu var. Dağlar qoynunda yerləşən Daşkəsən də ölkəmizin inkişafına öz layiqli töhfələrini verməkdədir.

Azərbaycan Prezidenti İlham Əliyevin göstəriş və tapşırıqları, dövlət proqramlarının icrası əsasında respublikamızın bütün bölgələrində olduğu kimi, Daşkəsən rayonunda da geniş tikinti, quruculuq, abadlıq işləri aparılır, ucqar dağ kəndlərinə yollar çəkilir, körpülər inşa olunur, su, elektrik, qaz təchizatı yaxşılaşdırılır. Ona görə Daşkəsənə daxil olanda diqqətimizi son bir neçə ildə aparılan və bütövlükdə bu ucqar dağ rayonunun simasını dəyişən abadlıq və quruculuq işləri oldu. Yeni çəkilən və genişləndirilən yollar, ucqar dağ kəndlərini birləşdirən, xüsusən uzun illərdir ilin soyuq aylarında yolsuzluqdan əziyyət çəkən sakinlərin gediş-gəlişini asanlaşdıran təzə körpülər Daşkəsənin müasir simasını, o cümlədən yüksəlişini əks etdirən yeniliklərdir.

Xatırladaq ki, Daşkəsən Azərbaycan SSR-də inzibati rayon kimi 1930-cu ildə təşkil edilib. Ərazisi 1046 kv.km, əhalisi 35 min nəfərə yaxındır. Rayonda 1 şəhər, 5 qəsəbə və 43 kənd var. Bu gün Daşkəsənə ayaq basan hər kəs elə ilk addımda rayonun son illərdə keçdiyi inkişaf yolunun, quruculuq və abadlıq işlərinin şahidi olur. Ölkəmizin hər yerində son illərdə geniş vüsət alan yenidənqurma və abadlıq işləri Daşkəsənin timsalında aydın görünür.

Rayonda Azərbaycan dövlətçiliyinin möhkəm əsaslar üzərində qurulmasında, respublikanın hərtərəfli inkişafında müstəsna xidmətləri olan ümummilli lider Heydər Əliyevin xatirəsi layiqincə əbədiləşdirilib. Ümummilli liderin adını daşıyan park daşkəsənlilərin ən sevimli istirahət yerlərindəndir. Daşkəsən şəhərinin mərkəzində ulu öndərin abidəsi ucaldılıb. 2014-cü il oktyabrın 17-də Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Daşkəsəndə Heydər Əliyev Mərkəzinin açılışında iştirak ediblər. Azərbaycanın Heydər Əliyev irsinə əsaslanan davamlı inkişaf konsepsiyasının mahiyyətinin aydın şəkildə öyrənilməsində, ulu öndərin irsinin gənc və böyüməkdə olan nəslə çatdırılmasında mühüm rol oynayan bu mərkəz həm də Daşkəsən şəhərinin görkəminə xüsusi gözəllik verir.

Həmin səfərdən sonra Prezident İlham Əliyev Daşkəsən şəhərində abadlıq-quruculuq işlərinin davam etdirilməsini, habelə "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda rayon üzrə müəyyən olunmuş tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədilə 2 milyon manat ayrılması barədə sərəncam imzalayıb.

Xatırladaq ki, Prezident İlham Əliyevin bundan əvvəl, 2012-ci il aprelin 2-də imzaladığı sərəncamla üç min nəfər əhalinin yaşadığı 13 yaşayış məntəqəsini birləşdirən Zağalı-Kollu-Çıraqlı avtomobil yolunun tikintisi məqsədilə 2012-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Prezidentinin Ehtiyat Fondundan Daşkəsən Rayon İcra Hakimiyyətinə ilkin olaraq 3 milyon manat ayrılıb. Prezident İlham Əliyevin 10 yanvar 2013-cü il tarixli sərəncamı ilə isə Daşkəsən rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsi məqsədilə rayon icra hakimiyyətinə Prezidentin Ehtiyat Fondundan 2 milyon manat ayrılıb. Beləliklə, son illər Daşkəsənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi üçün Prezidentin Ehtiyat Fondundan 4 milyon manat ayrılıb.

Bütün bunların nəticəsi olaraq Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair dövlət proqramları ölkənin bütün bölgələrində olduğu kimi, Daşkəsən rayonunda da uğurla reallaşır. Ümumiyyətlə, son illər rayonda mühüm layihələr həyata keçirilib. Mərkəzi kitabxana, mərkəzi rayon xəstəxanası, əlil, şəhid ailələri və qəzalı vəziyyətdə olan yaşayış evlərinin sakinləri üçün ümumilikdə 80 mənzilli 5 yaşayış binası, rayon icra hakimiyyətinin, statistika idarəsinin yeni inzibati binaları, avtovağzal kompleksi, 13 ümumtəhsil məktəb və digər sosialyönümlü obyektlər tikilib, Gəncələrin təlim və istirahət mərkəzi açılıb. "Daşkəsən Filizsaflaşdırma" kombinatının fəaliyyəti bərpa olunub, 2 dəmir yolu körpüsü əsaslı təmir edilib, asfalt və Çovdar qızıl zavodları və tutumu 1000 ton olan soyuducu anbar kompleksi istifadəyə verilib, geniş abadlıq-quruculuq işləri aparılıb. Daşkəsən şəhərinin kanalizasiya sistemi, küçələrinin işıqlandırma sistemi yenidən qurulub, yaşayış binalarında bərpa-gücləndirmə işləri aparılıb, mədəniyyət evinin, yaşayış binalarının dam örtükləri təmir edilib, Bayraq meydanı yaradılıb.

Son illər Daşkəsəndə rayondaxili yolların yenidən qurulması istiqamətində mühüm işlər görülüb. Xüsusən, bir neçə il öncə Prezident İlham Əliyevin sərəncamı ilə ayrılmış vəsait hesabına uzunluğu 47,4 km olan Gəncə-Daşkəsən-Xoşbulaq avtomobil yolu əsaslı təmir olunub. Bütün bunlar onu göstərir ki, Azərbaycanda hər bir sahədə həyata keçirilən siyasət Daşkəsəndə də uğurla reallaşır. Yeni istifadəyə verilən hər bir ünvan isə bütövlükdə rayonun simasını gözəlləşdirir, dağlar qoynunda yerləşən Daşkəsənin gözəlliyinə, sosial-iqtisadi inkişafına yeni töhfələr verir.

Daşkəsən bu ili də uğurla başa vurur

2016-cı ildə əvvəlki illərdə olduğu kimi, rayonun sosial-iqtisadi həyatında mühüm irəliləyişlər baş verib. Xüsusən, iqtisadiyyatın əsas sahələrində istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi əvvəlki ilə nisbətən müxtəlif sahələr üzrə xeyli artıb. Bütövlükdə isə bu ilin ötən dövründə məhsul buraxılışının həcmi 2015-ci ilin müvafiq dövrünə nisbətən əhəmiyyətli dərəcədə çoxalıb.

Son vaxtlar Daşkəsən Rayon İcra Hakimiyyəti tərəfindən aparılan ardıcıl, məqsədyönlü tədbirlər nəticəsində yaxın gələcəkdə də Daşkəsən rayonunda yeni müəssisələrin yaradılması və bir sıra irimiqyaslı tikinti, təmir-bərpa işlərinin həyata keçirilməsi, sosial layihələrin icrası nəzərdə tutulur.

Daşkəsən iqtisadiyyatı daha çox aqrar sferanı əhatə edir. Təsadüfi deyil ki, 2016-cı ilin məhsulu üçün 641 ha sahədə taxıl səpilmişdir. Hazırda rayonda 2 kartofçuluq, 2 taxılçılıq üzrə toxumçuluq təsərrüfatları, 1 damazlıq arıçılıq və 1 damazlıq mal-qara təsərrüfatı fəaliyyət göstərir. Gələcəkdə toxumçuluq və damazlıq təsərrüfatlarının artırılması üçün işlər aparılır. Heyvanların cins tərkibinin yaxşılaşdırılması məqsədilə 5 kənddə (Quşçu, Mollahəsənli, Əmirvar, Bayan, Qabaqtəpə kəndlərində) süni mayalama məntəqələri fəaliyyət göstərir. Məntəqələrin sayının artırılması üçün işlər davam etdirilir.

İlin ötən dövründə rayonda bir sıra təmir-tikinti və abadlıq işləri də görülüb. Quşçu həkim məntəqəsində, Zinzahal kənd klubunda və Əhmədli kənd mədəniyyət evində təmir işləri aparılıb. N.Nərimanov adına 3 saylı tam orta məktəbin dam örtüyü, Daşkəsən qəsəbə tam orta məktəbin döşəməsi yenisi ilə əvəz olunub. Daşkəsən şəhərində 7 çoxmərtəbəli yaşayış binası təmir edilib. Yeni yaradılmış rayon kənd təsərrüfatı idarəsinin inzibati binasında son tamamlama işləri görülür. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi əsasında Daşkəsən şəhərində, Daşkəsən qəsəbəsində və Qabaqtəpə kəndində Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 3 fərdi yaşayış evinin tikintisinə başlanılıb və hazırda tikinti işləri davam etdirilir. Daşkəsən şəhərində Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün yeni 36 mənzilli yaşayış binasının tikintisi üçün torpaq sahəsi ayrılıb, tezliklə həmin binanın tikintisinə başlanılacaq.

27 avqust 2016-cı ildə Daşkəsən rayonu ərazisində baş vermiş təbii fəlakət nəticəsində rayonda sosial obyektlərə, inzibati və yaşayış binalarına (əsasən Daşkəsən şəhərində çoxmərtəbəli binaların dam örtüklərinə ciddi ziyan dəymişdir), fərdi yaşayış evlərinə, yol, elektrik, rabitə təsərrüfatına ziyan dəymişdir. Ziyanın artmasının qarşısını almaq məqsədilə rayonun daxili imkanları hesabına dəymiş zərərin aradan qaldırılması üçün aidiyyəti üzrə işlər görülmüşdür.

Cari ilin ötən dövründə əhalinin elektrik enerjisi, qaz, istilik, içməli su ilə təchizatı vəziyyətinin yaxşılaşdırılması məqsədilə daxili imkanlar hesabına təmir-bərpa və yenidənqurma işləri həyata keçirilib. Alunitdağ qəsəbəsində 35/6 kv-luq elektrik yarımstansiyası istifadəyə verilib. Daşkəsən rayon elektrik şəbəkəsi tərəfindən 22 ədəd transformator cari təmir edilib, 11,7 km elektrikverici xətlərdə təmir işləri aparılıb,156 ədəd dayaq, 7,4 yarasız naqil yenisi ilə əvəz olunub. Daşkəsən şəhəri üzrə 0,4 kv-luq hava elektrikverici xətlərinin müasir kabellərlə əvəz olunması işləri isə davam edir. Həmçinin ötən dövr ərzində rayonun Zağalı kəndində 82 abonent təbii qazla təmin olunmuş, Xoşbulaq kəndində isə təbii qaz xəttinin çəkilişi davam etdirilmişdir.

İnkişafdan güc alan təşəbbüs

"Yeni Daşkəsən" ideyası rayonun yüksəlişindən və Prezidentin yürütdüyü inkişaf siyasətindən qaynaqlanır. Rayonun bütün daxili yollarının, körpülərin əsaslı təmiri üzrə Daşkəsən RİH tərəfindən Nazirlər Kabinetinə kompleks layihə təklifləri işlənib təqdim olunub. 3300 nəfər əhalinin yaşadığı 9 yaşayış məntəqəsini birləşdirən 25 kilometr uzunluğunda Daşkəsən-Əmirvar-Qabaqtəpə avtomobil yolunun tikintisi üzrə müvafiq sənədlər aidiyyəti üzrə qurumlara təqdim edilib və bu layihənin həyata keçirilməsi "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na daxil edilib.

Bütün bu məsələlərlə bağlı Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyevin fikirlərini öyrəndik. O dedi: "Digər bölgələr kimi, Daşkəsən rayonu da öz inkişaf dövrünü yaşayır. Dövlət proqramında rayonla bağlı tədbirlərin yüksək səviyyədə yerinə yetirilməsi bu inamı söyləməyə əsas verir. Cari ilin ötən dövrünün sosial-iqtisadi göstəriciləri fonunda bu fikri də əminliklə söyləyə bilərəm ki, 2016-cı il də Azərbaycanın təbii sərvətlərlə zəngin sənaye rayonu olan Daşkəsənin tarixinə ən sürətli inkişaf dövrü kimi yazılacaq. Möhtərəm Prezident İlham Əliyevin bölgələrə səfəri çərçivəsində Daşkəsən rayonu da xüsusi yer tutur. Səfər çərçivəsində ayrı-ayrı sosial obyektlərin açılışında və təməlqoyma mərasimində iştirak edən cənab İlham Əliyevin çıxışlarında hər zaman bu fikir önə çəkilir ki, uğurlarımız gələcəyə daha böyük nikbinliklə baxmağa əsas verir. "Yeni Daşkəsən" layihəsi də cənab Prezidentin yürütdüyü inkişaf siyasətindən qaynaqlanır. Bu layihə bütün rayon ictimaiyyətinin dərin razılığı ilə qarşılanır, bəyənilir və dəstəklənir. Bununla əlaqədar ölkə başçısına, baş nazirə, aidiyyəti nazirliklərə, komitələrə, şirkətlərə müraciətlər olunub. Artıq Nazirlər Kabinetində layihəyə müvafiq qaydada baxılaraq qaldırılan məsələlərin həlli barədə aidiyyəti üzrə nazirliklər, digər qurumlar tərəfindən yazılı surətdə müsbət rəylər alınıb. Hazırda həmin istiqamətdə işlər davam etdirilir".

Daşkəsən rayonunun yerli büdcəsi 2016-cı ildə də 75,10 faiz dotasiya ilə mərkəzləşmiş xərclərdən ayrılan vəsait hesabına formalaşıb. Bu göstərici 2017-ci il üçün 28,66 faiz təşkil edəcək. "Daşkəsən Filizsaflaşdırma" Açıq Səhmdar Cəmiyyətinin yenidən müasir formada işə salınması nəticəsində bu müəssisənin ayrı-ayrı tədiyələr üzrə vergilərinin yerli büdcəyə daxil olması ilə nəinki Daşkəsən rayonunun yerli büdcəsinin mərkəzləşmiş büdcədən asılılığı sıfıra enəcək, hətta dövlət büdcəsinin mərkəzləşmiş gəlirlərinə böyük məbləğdə əlavə vəsaitlərin ödənilməsinə səbəb olacaq.

Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev bildirdi ki, aparılan ardıcıl, məqsədyönlü tədbirlər nəticəsində yaxın gələcəkdə Daşkəsən rayonunda yeni müəssisələrin yaradılması və bir sıra irimiqyaslı tikinti, təmir-bərpa işlərinin həyata keçirilməsi nəzərdə tutulur: "Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində Daşkəsən rayonu böyük inkişaf yolu keçib. Hər bir daşkəsənli əldə edilən nailiyyətlərə görə dövlət başçısına minnətdardır. Amma biz bu uğurlarla kifayətlənməli deyilik. Ona görə qarşımızda çox məsul və şərəfli vəzifələr durur. Bu vəzifələrin layiqincə yerinə yetirilməsi üçün daha yüksək əzmkarlıq göstərərək bütün daşkəsənlilər qüvvələrini səfərbər edib var gücləri ilə çalışacaqlar. Əminliklə bildirmək istərdim ki, 2016-cı il Daşkəsənin inkişaf dövrü kimi yadda qalacaq".

Hər bir seçki Daşkəsən rayonunda mütəşəkkil baş tutması ilə yadda qalıb. Ölkə rəhbərliyinin həyata keçirdiyi siyasətə dəstək verən rayon sakinləri daim layiqli namizədləri dəstəkləyiblər. Rayonda referendumun da yüksək səviyyədə təşkili və vətəndaşların seçkilərdə iştirakı üçün hər cür şərait yaradılmışdı. İnkişafının yeni mərhələsini yaşayan Daşkəsən sakinləri seçkilərdə olduğu kimi, referendumda da fəal iştirak edərək Konstitusiyaya təklif olunan dəyişiklikləri dəstəklədilər. Referendum rayonda yüksək səviyyədə, tam ədalətli, demokratik şəraitdə keçirildi və ümumi seçicilərin 65,6 faizi bu siyasi kampaniyada fəal iştirak etdi.

Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət ölkəmizin müstəqilliyini daha da möhkəmləndirdiyi kimi, hər bir şəhər və rayonu da inkişaf yoluna çıxarıb. Bu mənada dağlar diyarı Daşkəsəndə qazanılan nailiyyətlər, həyata keçirilən genişmiqyaslı quruculuq işləri müstəqilliyimizin bəhrəsidir. İnkişaf etməkdə olan rayonun daha da abadlaşdırılması, həyata keçirilən quruculuq işlərinin uğurla davam etdirilməsi, rayon sakinlərinin rahat yaşamaları, çalışmaları və istirahətləri üçün qarşıda mühüm və ciddi vəzifələr durur.

> Bu vəzifələrin yerinə yetirilməsi, Prezident İlham Əliyevin müəyyən etdiyi kursun inamla davam etdirilməsi üçün rayon rəhbərliyi və ictimaiyyəti bundan sonra da böyük əzm göstərəcək, üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək, dövlətçiliyimizin möhkəmləndirilməsi, iqtisadiyyatımızın gücləndirilməsi istiqamətində bütün imkanlarını səfərbər edəcəklər.

Rəşad CƏFƏRLİ,
"Azərbaycan"

MƏKTƏBLİMİZ "MƏN VƏ HÜQUQLARIM" MÖVZUSUNDA KEÇİRİLMİŞ RƏSM MÜSABİQƏSİNİN SERTİFİKATINA LAYİQ GÖRÜLÜB

Ombudsman Aparatı 10 dekabr - Beynəlxalq İnsan Hüquqları Günü münasibətilə uşaq hüquqlarının müdafiəsi və təbliği üzrə "Mən və hüquqlarım" mövzusunda uşaq rəsmlərinin ənənəvi müsabiqəsini keçirib.

Müsabiqənin məqsədi uşaqlara hüquqlarını izah etmək, bu sahədə maarifləndirilməyə nail olmaqdır. Müsabiqədə respublikanın müxtəlif bölgələrindən 18 yaşadək olan uşaqlar və yeniyetmələr iştirak edib. Məlumat üçün qeyd edək ki, təqdim edilən rəsmlər müsabiqənin mövzusuna uyğun gəlməli, əsərlərdə BMT-nin Uşaq Hüquqları Konvensiyasının müvafiq müddəası öz əksini tapmalı, rəsmlər mövzu, ideya, işlənmə texnikası və üslub baxımından orijinal olmalıdır.

Sözügedən müsabiqədə Daşkəsən rayon Uşaq Yaradıcılıq Mərkəzinin yetirməsi, Daşkəsən şəhər A.Mürsəlov adına 2 saylı tam orta məktəbin 8-ci sinif şagirdi Aysun Qurbanlı da iştirak etmiş, sertifikata layiq görülmüşdür. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili Elmira xanım Süleymanovanın təbrik məktubunu və təltif sertifikatını, həmçinin Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı cənab Əhəd Abıyevin adından hədiyyəni 8-ci sinif şagirdi Aysun Qurbanlıya Daşkəsən Rayon İcra Hakimiyyəti Başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Namiq Süleymanov təqdim etmiş və məktəbliyə yeni-yeni yaradıcılıq uğurları arzulamışdır.

Qəhrəman HÜSEYNOV

SIĞORTANIN ƏHƏMİYYƏTİ

Bir anlıq təsəvvür edək ki, sığorta yoxdur. Təzminatı kim ödəyərdi? Başqa sözlə, hal-hazırda sığorta bazarının təmin etdiyi maliyyəni kim təmin edərdi? Paytaxtımızda və digər şəhərlərimizdə avtomobil idarə edənlərin sayı günü-gündən artır. Artıq həyatımızın ayrılmaz hissəsi olan avtomobil qəzalarının xərclərinin hamısını özümüz ödəməli olsaq, hansı problemlərlə üzləşərdik? Ən əsası isə sənaye və kommersiya fəaliyyəti indiki kimi arxayınlıqla həyata keçirilməzdi. Qalmaqda və artmaqda olan risklərin öhdəsindən isə təkbaşına gəlməli olardıq. Ən yaxşı halda bu xərclər hamısı dövlət tərəfindən qarşılanmalı idi. Dövlətin bu qədər böyük maliyyə yükünün azaldılması üçün isə hal-hazırda ödədiyimizdən dəfələrlə çox vergi ödəməli olardıq. Sığorta dövləti bu ağır yükdən azad edib mühüm ictimai xidmət göstərir.

Sığorta cəmiyyətin ictimai-iqtisadi həyatının bütün tərəflərini əhatə etməklə əhalinin maddi rifahının və sahibkarlıq riskinin zəmanətçisi kimi gözlənilməz və fövqəladə hadisələr zamanı əmlak mənafelərinin qorunmasına, dövlətin maliyyə sisteminin möhkəmləndirilməsinə təsir edir. O nəinki sığorta hadisələri zamanı büdcəni dəyən zərərlərin ödənilməsindən azad edir, hətta uzunmüddətli investisiyaların mənbəyinə çevrilir.

Qeyd edək ki, sığorta şəxslərin əmlakı, həyatı, sağlamlığı, mülki məsuliyyəti, həmçinin qanunvericiliklə qadağan olunmayan fəaliyyəti, o cümlədən sahibkarlıq fəaliyyəti ilə əlaqədar olan əmlak mənafelərinin müdafiəsi sahəsində riskin ötürülməsinə və ya bölüşdürülməsinə əsaslanan münasibətlər sistemidir. Sığortanın əsas etibarilə dörd funksiyası var. Bunlar aşağıdakılardan ibarətdir: risk funksiyası, xəbərdarlıq funksiyası, yığım (əmanət funksiyası), nəzarət funksiyası. Əsas funksiya kimi risk funksiyası çıxış edir. Belə ki, zərər həmişə meydana çıxa və hətta hər il təkrar oluna bilər. Sığortanın qarşısında qoyulan məqsədlərə uyğun olaraq sığortaçı təşkilat zərərçəkmiş təsərrüfat subyektlərinə pul yardımı göstərməlidir.

Sığortaçı isə yalnız sığorta və təkrar sığorta fəaliyyətini göstərmək məqsədilə yaradılmış, qanunvericiliklə müəyyənləşdirilmiş qaydada xüsusi razılıq almış hüquqi şəxs olan sığorta təşkilatıdır. Bu təşkilatlar dövlət və qeyri-dövlət təşkilatları növlərinə bölünür. Sığortaçının vəzifəsi əhalinin, yəni hər hansı bir sığortalının sağlamlığına və əmlakına zərər dəyərsə, onların sosial müdafiəsinə əlavə təminat, maddi yardım ödəməkdən ibarətdir.

Sığorta prosesi sığortaçı ilə sığortalı arasında bağlanan sığorta müqaviləsi əsasında həyata keçirilir. Sığorta müqavilələri icbari və ya könüllü qaydada bağlanılır. Məcburi sığorta dövlət tərəfindən qanunvericilik əsasında həyata keçirilməklə cəmiyyətin maraqlarının təmin edilməsi üçün hüquqi və fiziki şəxslərin sığorta edilməsidir. Hər bir ölkədə məcburi sığorta obyektləri müxtəlifdir. Könüllü sığorta qanuni yolla və könüllü əsaslarla fəaliyyət göstərir.

Daşınmaz əmlakın (yaşayış evləri, mənzillər, qeyri-yaşayış sahələri) icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, daşınmaz əmlak sahiblərinin mülki məsuliyyətinin icbari sığortası və sərnişinlərin icbari sığortası sahəsində sığortaçılar, sığortalılar, sığorta olunanlar və faydalanan şəxslər arasında hüquqi və iqtisadi münasibətləri tənzimləmək, onların hüquq və mənafelərinin qorunması məqsədi ilə respublikamızda qeyd olunan icbari sığorta növlərinin həyata keçirilməsinin ümumi əsaslarını, həmçinin bu növlərin aparılması qaydalarını və şərtlərini müəyyən edən 24 iyun 2011-ci il tarixli 165-IVQ nömrəli "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmişdir.

Həmin qanuna əsasən, daşınmaz əmlakın icbari (məcburi) sığortası daşınmaz əmlakın yanğın, təbii fəlakətlər və digər gözlənməz hadisələr nəticəsində zədələnməsi, məhv olması, yaxud hər hansı formada itkisi ilə bağlı dəyən zərərin əvəzinin ödənilməsi məqsədi ilə tətbiq edilir. Hüquqi və fiziki şəxslərə məxsus tikililərin, yaşayış və qeyri-yaşayış sahələrinin, binaların, mənzillərin habelə siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilən dövlət əmlakının sığortası icbaridir.

Daşınmaz əmlakın - yaşayış evlərinin, mənzillərin sığorta məbləği və sığorta haqqı ölkəmizdə hazırda aşağıdakı qaydada müəyyənləşdirilmişdir: Bakı şəhərində 25000 manat, sığorta haqqı 50 manat; Gəncə, Sumqayıt və Naxçıvan şəhərlərində 20000 manat, sığorta haqqı 40 manat; digər yaşayış məntəqələrində yerləşən yəni rayon və şəhərlərdə 15000 manat, sığorta haqqı 30 manatdır.

Mülkiyyətində hər hansı daşınmaz əmlak olan və ya ona faktiki sahibliyi həyata keçirən şəxslər həmin əmlakı icbari (məcburi) qaydada sığortalamalıdır. Sığorta hadisəsi baş verdikdə sığorta müqaviləsi bağlanılan sığortalı sığorta filiallarına rəsmi qaydada vaxtında müraciət etməlidir.

Azərbaycan Respublikasının "Mənzil Məcəlləsi"nin 28.1-ci maddəsinə əsasən, mülkiyyətçi ona məxsus mənzilin (yaşayış binasının) qəza vəziyyətinə düşməməsi üçün onu vaxtlı-vaxtında əsaslı təmir etmək, mənzil (yaşayış binası) təbii fəlakət və ya mülkiyyətçidən asılı olmayan digər səbəblərdən qəza vəziyyətinə düşdükdə isə onu mümkün olan ən qısa müddət ərzində təmir və bərpa etmək vəzifəsini daşıyır. Coğrafi şəraiti ilə əlaqədar olaraq rayonumuzda tez-tez külək və dolu ilə müşahidə olunan təbiət hadisələri baş verir ki, bu da çox vaxt ciddi fəsadlara səbəb olur. Ona görə də mənzillərin və fərdi yaşayış evlərinin mülkiyyətçilər tərəfindən sığorta etdirilməsi baş verə biləcək qeyri-adi hadisələr zamanı qaçılmaz zərərlərin qarşılanmasında onlar üçün çox faydalı olar və belə hadisələr baş verdikdə lüzumsuz narazılıqlar, sosial gərginliklər yaşanmaz.

Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası mexaniki avtonəqliyyat vasitələrinin Azərbaycan Respublikasının ərazisində istifadəsi nəticəsində fiziki şəxslərin sağlamlığına, həmçinin fiziki və hüquqi şəxslərin əmlakına vurduğu zərərlərin əvəzinin ödənilməsi məqsədi ilə tətbiq edilir. Avtonəqliyyat vasitələrinin istifadəsi ilə bağlı üçüncü şəxslər qarşısında mülki məsuliyyətinin sığortası da icbaridir. Üçüncü şəxslər sığortalı və sığorta olunanın ailə üzvləri istisna olmaqla, mülki məsuliyyətin icbari sığortası üzrə sığorta müqaviləsinin tərəfi olmayan sığorta olunanın hərəkəti və ya hərəkətsizliyi nəticəsində zərər çəkən, eyni zamanda sığorta ödənişi almaq hüququna malik olan fiziki şəxslər - fiziki şəxs vəfat etdiyi halda, onun ailə üzvləri - və ya hüquqi şəxslər, yaxud onların hüquqi varisləri üçüncü şəxslər sayılırlar.

Avtomobillərin icbari sığortasına nəzarət indi Dövlət Yol Polisinə həvalə edilmişdir. Rayonumuzda da çox sayda hüquqi və fiziki şəxslərə məxsus avtomobillər mövcuddur. Avtomobil sahiblərinin bəziləri icbari sığortadan yayınır və ya vaxtında sığorta etdirmirlər. Sığorta hadisələri baş verdikdə isə müəyyən çətinliklərə üzləşirlər. İcbari sığortanın olmamasına görə inzibati qaydada sürücülərə yol polisi tərəfindən cərimə protokolu tərtib edilir.

Hər hansı bir ölkədə sığorta fəaliyyəti üzərində dövlət nəzarətini müvafiq icra hakimiyyəti orqanı yerinə yetirir. Ölkəmizdə isə bu funksiyanı Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası həyata keçirir.

Sığorta bugünkü həyatımızda olduqca vacibdir. Ona görə ki, bügünkü dünyamızda tez-tez təbii fəlakətlər, yanğınlar, yol nəqliyyat hadisələri, eləcə də fərdi qəzalar baş verir. Unudulmamalıdır ki, növündən asılı olmayaraq sığorta hər zaman insanların etibarlı təminatçısıdır.

Xəqani HƏSƏNOV

DAŞKƏSƏN RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISI TƏRƏFİNDƏN YERLƏRDƏ VƏTƏNDAŞLARIN SƏYYARİ QƏBULLARININ KEÇİRİLMƏSİ

Q R A F İ K İ

Sıra №-si	Qəbulların keçiriləcəyi yaşayış məntəqələrinin adı	Qəbulların keçiriləcəyi yer	Nəzərdə tutulan keçirilmə tarixi	RİHBA-dan qəbulda iştirak etməsi nəzərdə tutulan məsul şəxslər
1.	Zəylik kəndi	Kənd mədəniyyət evinin binası	11.01.2017-ci il saat 11^{00}	C.Qocayev, S.Əhmədov
2.	Gurbulaq kəndi	Kənd mədəniyyət evinin binası	18.01.2017-ci il saat 11^{00}	N.Süleymanov, M.Yolçuyev
3.	Bayan kəndi	Kənd tam orta məktəbinin binası	25.01.2017-ci il saat 11^{00}	C.Qocayev, E.Şıxəliyev

QEYD: Qəbulda rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri iştirak edəcəklər.

ELANLAR

Daşkəsən rayon Dəstəfur kənd sakini **Həsənova Kimya Muxtar qızının** adına verilmiş JN - 95 nömrəli torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

***

Daşkəsən rayon Zivlən kənd sakini mərhum **Hüseynova Sultan Namaz qızının** adına verilmiş JN - 027 nömrəli torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

***

Daşkəsən rayon Xoşbulaq kənd sakini **İbrahimov Valeh Rza oğlunun** adına verilmiş 448 nömrəli torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

***

Gəncə şəhər sakini **Kərimov Hidayət Abdurəhman oğlunun** adına verilmiş 28.07.1994-cü il tarixli 3-635 nömrəli qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

6 DEKABR RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI SAHƏSİ İŞÇİLƏRİNİN PEŞƏ BAYRAMI GÜNÜDÜR

Dekabrın 6-da Azərbaycanda rabitə və informasiya texnologiyaları sahəsinin işçiləri peşə bayramlarını qeyd edirlər. Həmin gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2 dekabr 2006-cı il tarixli sərəncamı ilə təsis olunub. Peşə bayramının məhz bu gündə qeyd olunması Azərbaycanda ilk telefon xəttinin yaradılması ilə bağlıdır. Belə ki, 1881-ci il dekabrın 6-da Bakıda "Nobel qardaşları" cəmiyyəti tərəfindən ilk telefon xətti çəkilmişdir.

Azərbaycanda rabitə sahəsi xalqımızın Ümummilli Lideri Heydər Əliyevin hakimiyyəti illərində xüsusilə inkişaf etməyə başlayıb. Ölkəmizdə rabitə sisteminin əsas inkişaf dövrü 70-80-ci illərə təsadüf edir. 1976-cı ildə təkcə Bakı telefon şəbəkəsinin gücü 1927-ci illə müqayisədə 20 dəfədən çox artmış, telefon Azərbaycan əhalisinin məişətinin ayrılmaz hissəsinə çevrilmişdi.

Həmin illərdə poçt, teleqraf və teleradio proqramlarının yayımı sahələri də diqqətəlayiq inkişaf yolu keçmişdir. Bakıda Dəmir yolu yanı poçtamt binasının, Rabitə evi, onlarla rayon mərkəzində rabitə qovşaqları üçün binaların, bundan başqa respublikada 300-dən çox poçt şöbəsi binasının tikintisi o dövrdə reallaşmışdır.

1979-cu ildə Heydər Əliyevin şəxsi rəhbərliyi altında yaradılmış komissiya tərəfindən Bakıda - köhnə teleqüllənin yaxınlığında tikilməsi nəzərdə tutulan 310 metrlik Yeni Teleqüllənin layihəsi təsdiq edildi və 1981-ci ildə obyektin tikintisinə başlandı. Buna baxmayaraq bir sıra obyektiv və subyektiv səbəblər üzündən Yeni Teleqüllənin istismara verilməsi ləngidilsə də, Heydər Əliyevin Azərbaycana ikinci dəfə rəhbərlik etdiyi dövrdə onun diqqət və qayğısı sayəsində xalqın istifadəsinə verildi.

Həmçinin, 90-cı illərdə Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldikdən sonra Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları (İKT) sektoru daha da təkmilləşdi, bu yeni sektorun inkişafı prosesi sürətləndi, Azərbaycanın internet seqmenti genişləndi.

Son illər ərzində beynəlxalq ekspertlər Azərbaycanda informasiya texnologiyalarının sürətlə inkişafını xüsusilə qeyd edirlər. İKT sahəsi üzrə gəlirlərin artım tempi son illər ərzində dünya üzrə artım tempini bir neçə dəfə üstələyib.

Azərbaycan rəqəmli fərqliliyin aradan qaldırılması istiqamətində bir sıra mühüm irimiqyaslı regional layihələr həyata keçirir. Bu, TransAvrasiya Super İnformasiya Magistralı (TASİM), Milli Telekommunikasiya Peykinin orbitə çıxarılması, Regional İnnovasiya Zonasının yaradılması və digər böyük əhəmiyyət kəsb edən layihələrdir.

Azərbaycanda rabitə və İKT sektorunun hazırkı sürətli inkişafı Ümummilli Liderin siyasi kursunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin şəxsi diqqət və qayğısı nəticəsində əldə olunub. Dövlət başçısı çıxışlarında İKT sektorunun inkişafının zəruriliyini, eləcə də prioritetliyini və bilik iqtisadiyyatının yaradılmasındakı rolunu dəfələrlə qeyd edib.

Builki peşə bayramı Azərbaycanda telefon rabitəsinin yaranmasının 135-ci ildönümü ilə əlamətdar olub. Telefon rabitəsinin 135 illik yubileyi Daşkəsən Telekommunikasiya Qovşağında da qeyd edilib. Tədbirdə qovşağın əməkdaşları, rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Əvvəlcə respublikanın bütün rabitəçilərini peşə bayramı günü münasibətilə təbrik edən rayon Telekommunikasiya Qovşağının rəisi Aslan Rüstəmov giriş nitqində bildirib ki, son illərdə Daşkəsən rayonunda telekommunikasiya sahəsində böyük uğurlar əldə edilib. Bütün bunlar ölkə Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısının nəticəsidir. Daşkəsənin mürəkkəb coğrafi, dağlıq relyef şəraitinə baxmayaraq, hazırda rayon əhalisinin 70%-i sürətli internetdən istifadə edir. Abonentlərin, demək olar ki, yarıdan çoxu geniş zolaqlı internet istifadəçiləridir və bu istiqamətdə işlərimiz uğurla aparılır.

A.Rüstəmov onu da qeyd edib ki, təkcə cari ildə Yuxarı Daşkəsən qəsəbəsi, Qaraqollar və Zəylik kənd elektron ATS-nə 6 kilometri yeraltı olmaqla ümumi uzunluğu 18,8 kilometr olan FO-12 fibro-optik kabel çəkilmiş, Əhmədli, Dəstəfur, Xoşbulaq kənd elektron ATS-də internet avadanlıqları quraşdırılmış və bunun nəticəsində də rabitənin keyfiyyəti müasir tələblərə uyğun yaxşılaşdırılmışdır. Eləcə də Gəncə-Daşkəsən arası rabitə və internetin keyfiyyətini yüksəltmək məqsədi ilə yeni ATN-910 avadanlığı quraşdırılaraq istismara verilmişdir. Magistral kabellərdə və ümumiyyətlə xətt təsərrüfatında profilaktik işlər yüksək səviyyədə aparıldığı üçün payız və qış mövsümündə keyfiyyətli rabitənin təminatı işində bu günə qədər ciddi bir problem olmamışdır. Ötən dövrlərdə təbii fəlakət nəticəsində rayonun rabitə təsərrüfatına dəymiş ziyanlar daxili imkanlar hesabına tam aradan qaldırılmışdır. Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədi ilə 2016-cı il sentyabrın 26-na təyin edilmiş ölkə əhəmiyyətli ümumxalq səsverməsi (referendum) zamanı rayonumuzun bütün seçki məntəqələri keyfiyyətli rabitə ilə tam təmin olunmuşdur.

Çıxışının sonunda A.Rüstəmov xüsusi vurğulayıb ki, ölkəmizdə və rayonda gedən bütün ictimai-siyasi hadisələrdə rayon Telekommunikasiya Qovşağının əməkdaşları daim fəallıq göstərir və ölkə Prezidenti cənab İlham Əliyevin apardığı daxili və xarici siyasəti ürəkdən dəstəkləyirlər.

Daha sonra qovşağın əməkdaşları Vüqar Xəlilov, Rahilə Əliyeva və Raqif Allahverdiyev çıxış etmiş, öz xoş arzularını çatdırmışlar.

Qeyd edək ki, ölkəmizdə rabitəçilərimizin əməyi hər zaman yüksək qiymətləndirilir. Builki peşə bayramı günündə "Aztelekom" MMC-nin baş direktoru Suat Paşayevin müvafiq əmri ilə rayon Telekommunikasiya Qovşağının əməkdaşı - Bayan kənd montyoru Alıyev Eşqin Sədrəddin oğlu fəxri fərmanla təltif edilmiş və pul mükafatı ilə mükafatlandırılmışdır.

Tədbirin sonunda xatirə fotosu çəkilib.

ELMAR VÜQARLI
Azərbaycan Yazıçılar Birliyinin üzvü

YAŞAYIŞ EVLƏRİNİ YANĞINDAN QORUYUN!

Bu gün müstəqil Azərbaycanımızı böyük inşaat meydanına bənzətmək olar. Ölkə iqtisadiyyatının inkişafı şəhər və rayonlarımızın, qəsəbə və kəndlərimizin mənzərəsini gündən-günə dəyişir, yeni tikililər, xüsusən də təzə salınan yaşayış massivləri əhaliyə daha firavan həyat bəxş edir.

Təbii ki, istər müasir dövrdə tikilən və istərsə də köhnə evlərdə sakinlər qazdan və elektrik enerjisindən istifadə etməklə öz məişət problemlərini həll edirlər. Demək olar ki, hər bir ailədə cürbəcür məqsədlər üçün müxtəlif kimyəvi maddələrdən, tezalışan mayelərdən istifadə olunur. Bütün bunlar isə mənzillərdə yanğın təhlükəsizliyinə ciddi əməl olunmasını tələb edir. Hər bir vətəndaş bilməlidir ki, evlərdə yanğın təhlükəsizliyi qaydalarının pozulması, qaz və elektrik cihazlarından düzgün istifadə olunmaması, uşaqların odla dəcəlliyinə etinasız münasibət insan itkisi, külli miqdarda maddi ziyanlarla nəticələnən böyük yanğınlara səbəb olur.

Aparılan araşdırmalar göstərir ki, yaşayış yerlərində baş verən yanğınların əsas səbəbi od ilə ehtiyatsız davranmaqdır. Bəzən ilk baxışdan narahatçılıq doğurmayan, tez-tez müşahidə etdiyimiz və ciddi diqqət yetirdiyimiz adi hallar belə iri yanğınlar törədir. Xüsusilə çardaqlarda, ot və s. quraşdırılmış yem bitkilərinin saxlandığı anbarlarda, yaşayış yerlərindəki yardımçı təsərrüfat binalarında siqaret çəkmək, işıqlandırma məqsədilə oddan açıq halda ehtiyatsız istifadə etmək böyük yanğınların baş verməsinə şərait yaradır.

Siqaret çəkilərkən etinasız davranışlar xüsusilə təhlükəlidir. Unutmamalıyıq ki, siqareti alışdırarkən kibriti və ya siqaretin qalığını yanana hara gəldi atmaq, yaxud taxta üstünə, hətta od ilə azacıq təmasda alışa bilən şeylərin yaxınlığına qoymaq böyük yanğınlar törədir.

Sübut olunub ki, közərməkdə olan papirosun ən yüksək temperaturu 300-420 dərəcə hüdudlarına enib-qalxır, közərmə vaxtı isə 4-8 dəqiqə çəkir. Siqaretin başlanğıc anda temperaturu 310-340 dərəcə olur və sonra get-gedə azalaraq 240-260 dərəcəyə enir. Yanacaq materialında közərmə əmələ gətirən papiros kötüyü bir qədərdən sonra özü sönür. Lakin əmələ gətirdiyi közərmə mənbəyi əlverişli şəraitdə yanğına çevrilə bilir. Hərarətin bir yerdə toplanmasını təmin edən şəraitdə közərən papiros və ya siqaret təmas edən yeri kömürləşdirdikdən sonra taxta hissə öz-özünə qızışır və tədricən alovlanır. Daha dəqiq desək, şam ağacının qırıntısının üzərinə söndürülməmiş papiros kötüyü düşdükdən 60-80 dəqiqə, mebelin iri tullantıları (müxtəlif qalınlıqda taxta parçaları) isə 180-210 dəqiqədən sonra alovlanır.

Taxta yonqarı üzərində təcrübə apararkən söndürülmədən atılan papiros kötüyü 5-10 sm dərinliyə qoyulur. Həmin yonqarın aralarında hava (boşluq) çox olduğundan istiliyin keçməsi və közərmədən əmələ gələn tüstünün uçub getməsi üçün yaxşı şərait yaranır. Hər dörd təcrübədən üçündə yonqar 60-100 dəqiqədən sonra 300-400 dərəcə istilikdə alovlanmışdır.

Közərmədə olan siqaret kötüyü kağızı asanlıqla alışdıra bilir. Siqaret kötüyü 5-10 sm dərinliyə düşdükdə o, çox tez - 12-35 dəqiqə keçdikdən sonra alışır, quru ot və saman içinə düşdükdə də eyni qaydada yanğınla nəticələnir.

Bütün bunlar bir daha təsdiqləyir ki, söndürülməyib tullanan siqaret kötüyündən əmələ gələn yanğınlar ehtimal ediləndən daha təhlükəlidir. Eyni zamanda uzanmış halda, xüsusən sərxoş olanda uzanıb papiros çəkmək çox təhlükəlidir.

Evlərdə qızdırıcı sobalardan istifadə edərkən yanğın təhlükəsizliyinə xüsusilə ciddi diqqət yetirmək lazımdır. Odun sobalarından istifadə edərkən soba bacalarına tez-tez nəzarət edilməli, onlar hər qış mövsümündə təmizlənməlidir. Sobalar yanmayan bir əşya üzərində yerləşdirilməli və ya onunla soba arasına yanmayan bir qoruyucu yerləşdirilməlidir. Pərdə, masa, taxta, parça əşyalar sobadan 60 sm uzaqda olmalıdır. Sobada uyğun yanacaq yandırılmalıdır. Kül metal qablarla boşaldılmalıdır.

Soba holl, qapı ağzı kimi evdə hərəkətin çox olduğu yerlərdə qoyulmamalıdır. Sobalar istifadə edilmədikdə çöldə, uşaqların əllərinin çata bilməyəcəyi bir yerdə saxlanılmalıdır. Sobanın giriş qapağı kip bağlanmalıdır.

Sobanın istifadə edildiyi yer yaxşıca havalandırılmalıdır.

Daşınan elektrik sobalarından istifadə zamanı yatarkən soba elektrik şəbəkəsindən ayrılmalıdır. Sobalardan yalnız yerdə istifadə edilməlidir. Yanar maddələr sobadan ən azı 60 sm aralıda olmalıdır. Elektrik sobalarından paltar qurutmaq məqsədi ilə istifadə edilməməlidir.

Evlərdə istifadə olunan mətbəx sobalarının üzərində alovlanan maddələr yerləşdirilməməlidir. Uşaqların diqqətini çəkən şüşə əşyalar ocaq və soba yaxınlığında qoyulmamalıdır. Yemək bişirən zaman soba və ya qızdırıcı cihaz nəzarətsiz qalmamalıdır. Mənzillərdə yanğın adətən mətbəxdə baş verdiyindən, burada olarkən həddən artıq diqqətli olmaq lazımdır. Unutmaq olmaz ki, mətbəxdə və balkonda tezalışan maddə və mayelərin saxlanması qəti qadağandır. Belə ki, yuxarı mərtəbələrdən aşağıya atılan siqaret kötüyü küləklə balkona düşə bilər və orada saxlanılan maddə və mayeləri alışdırar. Mətbəxdə isə küləkdən yellənən pərdələr yanan qaz plitəsinə yaxınlaşdıqda alışa bilər və beləliklə də böyük yanğına səbəb olar. Mətbəx və balkonları lüzumsuz əşyalarla doldurmaq olmaz. Bu xüsusilə tezalışan maddə və mayelərə, eləcə də taxta mebel və şkaflara, ümumiyyətlə, alışa bilən hər bir materiala aiddir. Yadda saxlamaq lazımdır ki, bir çox yanğınlar mətbəxdə isti qazan və tavalardan, onların içərisindəki qaynar yağdan da baş verə bilər.

Kimyəvi maddələrlə, tezalışan mayelərlə ehtiyatsız davranmaq da evlərdə yanğının baş verməsi ilə nəticələnə bilər. Məlum olduğu kimi, bu gün hər bir müasir evdə və mənzildə məişət kimyasına aid yanğın təhlükəli kimyəvi maddələr və materiallar vardır. Hər cür əridicilərə, nitrolaklara, rənglərə, mastikalara, ziyanverici və parazit həşəratlarla mübarizə məqsədilə işlədilən kimyəvi dərmanlara evlərdə çox vaxt rast gəlmək mümkündür. Həmçinin, bəzək-düzəyə aid kimyəvi maddələr də yanğın cəhətdən artıq dərəcədə təhlükəlidir. Belə ki, saç, dırnaq və sairə üçün işlədilən müxtəlif laklar, kiçik aerozol qablarında satılan digər məişət kimyası yanğın təhlükəlidir. Belə ki, onlara tezalışan və yanar tərkiblər doldurulmuşdur və onlar daima təzyiq altında olduğundan təhlükəsi də çoxdur.

Yuxarıda adları çəkilən maddələrin hamısı ilə çox ehtiyatlı davranmaq lazımdır. Bunlardan hər birisi açıq oddan, kibritdən, qaz plitəsindən, sobadan, papirosdan qorunmalıdır. Yadda saxlamaq lazımdır ki, hətta elektrik açarını burarkən, elektrik cihazlarını rozetkaya salıb-çıxararkən əmələ gələn qığılcımdan belə bəzi kimyəvi maddələr asanlıqla alışır. Qığılcım hətta metalı metala vurarkən də əmələ gələ bilər.

Linoleumu və ya parketi döşəməyə yapışdırmaq üçün istifadə olunan kimyəvi yapışdırıcı maddələri qaz və başqa qızdırıcı cihaz üzərində qızdırmaq nəticəsində də yanğın hadisələrinə tez-tez təsadüf olunur.

Yanğın cəhətdən qorxulu olan aerozol və ya başqa bu kimi qablarda olan nitrorəngdən, lakdan, emal və müxtəlif kimyəvi maddələrdən istifadə edərkən qabaqcadan məcburi surətdə mənzilin havasını dəyişdirmək lazımdır və heç bir halda mənzilin havası təmizlənməmiş od yandırmağa, papiros çəkməyə, elektrik açarı və rozetkalardan istifadə edilməsinə yol verilməməlidir.

Evlərdə yanğın hadisələri tonqaldan da baş verə bilər. Yadda saxlamaq lazımdır ki, əgər tonqal yaşayış yerinin yaxınlığında qalanmışsa - bu ciddi yanğın təhlükəsi yaradır. Tonqal qalandıqda küləyin təsirindən havaya qalxan qığılcım zibilin, quru otun, inşaat materialları qalıqlarının yanma ehtimalını artırır, bu isə evlərdə yanğın baş verməsi üçün kifayət edir.

Bəzən, işıqlandırmaq məqsədi ilə şamdan istifadə edilərkən adi ehtiyat tədbirləri tamamilə unudulur. Unutmayın ki, şamı öz ərintisi ilə masa, taxta parçası, siqaret və kibrit qutuları üzərinə yapışdırmaq olmaz, çünki şam yıxıla bilər və yanmaqda davam edərsə, yanğına səbəb olar. Şamlardan istifadə etmək üçün onları sabit metal şamdana taxmaq və ya nimçə içinə qoymaq lazımdır. Yanan şam ilə çardağa, anbara, tövləyə girmək təhlükəlidir. Belə yerlərə daxil olarkən yaxşı olar ki, cib elektrik fənərlərindən istifadə edin.

Televizorlardan istifadə edərkən yanğın təhlükəsizliyi qaydalarının pozulması da yanğınlara səbəb ola bilər. Birinci növbədə qeyd etmək lazımdır ki, televizor elektrik cərəyanı ilə işlədiyindən, ona daim nəzarət olunmalıdır. Televizorlardan istifadə edərkən standartlara uyğun olmayan qoruyuculardan istifadə etmək yanğın təhlükəsizliyi qaydalarına ziddir. Televizorun uzun müddət fasiləsiz işləməsi də yanğınla nəticələnə bilər. Televizorun arxa qapağındakı dəliklərin tutulmasına yol vermək olmaz. Televizorlardan istilik batareyalarının, digər qızdırıcı cihazların yanında qoyulması, həmçinin, mebel içərisində quraşdırılması yanğının baş verməsinə səbəb ola bilər. Televizorları istifadə edərkən sabitləşdirici cihazlardan (stabilizatordan) istifadə etmək məqsədəmüvafiqdir. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, televizor və ya digər elektrik cihazlarından yanıq qoxusu gəlirsə və ya tüstü çıxırsa, dərhal televizor və ya cihaz elektrik şəbəkəsindən ayrılmalı və yalnız mütəxəssisin icazəsindən sonra ondan istifadə olunmalıdır.

Qışda kəskin soyuqlar başladığı zaman su kəmərləri və kanalizasiya boruları, mərkəzi qızdırma boru və cihazları, çardaqlarda qoyulan çənlər donur. Yanğın təhlükəsizliyi tədbirlərinə etinasızlıqla baxanlar çox vaxt onları açıq odla qızdırırlar. Bu isə çox vaxt yanğınla nəticələnir. Bu cür boruların donunu açmaq üçün yalnız qaynar su və ya qızdırılmış qum işlədilməlidir.

Uşaqlar tərəfindən od ilə dəcəllik də mənzillərdə yanğınlara səbəb olur. Evdə və ya mənzildə tək qalmış uşaq kibriti götürə bilər, böyüklərin etdiyi kimi, kağız yandırar, qızdırıcı elektrik cihazını şəbəkəyə qoşar, hətta bir vaxt meşədə, bağda və başqa yerlərdə gördüyü kimi, tonqal da yandıra bilər. Böyükləri təlqin edərək bəzən uşaqlar hətta siqaret çəkməyə də təşəbbüs göstərə bilərlər. Bu məsələdə, əlbəttə, müqəssir valideynlərdir, onlar uşaqları mənzildə tək qoyurlar, kibriti onlardan gizlətmir, uşaqların davranışına nəzarət etmir, bəzən də uşaq şıltaqlığına uyub onlara kibritlə oynamağa icazə verir, sobanı yandırmağı, yanmaqda olan məişət cihazlarına nəzarət etməyi balacalara tapşırırlar.

Uşaqları mənzildə tək qoyub qapını bağlamaq olmaz, yanmaqda olan sobalara və qızdırıcı cihazlara nəzarət etməyi də onlara etibar etmək yaramaz, bunlardan əlavə, azyaşlı uşaqlara qızdırıcı cihazları cərəyana qoşmağa da icazə vermək olmaz.

Yaz-yay dövrlərində insanlar adətən şəhərətrafı bağ evlərində dincəlirlər. Bəzən onların xoş ovqatı isə bu əhval-ruhiyyə yanğınla bağlı təhlükəsizlik qaydalarına əməl etməmələri səbəbindən pozulmasından baş vermiş yanğın üzündən tamamilə korlanır. Odur ki, təhlükəsizlik tədbirlərinə həmişə və hər yerdə xüsusi diqqət yetirmək lazımdır. Bunun üçün keyfiyyətli məişət avadanlığından istifadə etmək, səliqəlilik və ehtiyatlılıq kimi prinsiplərə diqqət yetirmək vacibdir.

İstirahəti poza biləcək yanğının baş verməməsi üçün çox da çətin olmayan yanğın təhlükəsizliyi qaydalarına sadəcə riayət etmək lazımdır. Belə ki, bağ evlərinin yaxınlığında tonqal qaladıqda ehtiyat tədbirləri görülməli, tezalışan mayelərin saxlanmasında etinasızlıq göstərilməməlidir. Yadda saxlamaq lazımdır ki, ərazini tikinti materialları və alışqan maddələrlə doldurduqda, işıqlandırmaq üçün açıq alovdan (şam, məşəl) istifadə etdikdə, sobanın üzərində və yanında paltar və ya odun qurutduqda, kustar üsulla düzəldilmiş elektrik avadanlıqlarından və elektrik qızdırıcı cihazlarından istifadə etdikdə, bacaların yaxınlığındakı çardaqlarda tez alışan əşya və məişət qaz balonları saxladıqda, qaz cihazlarında nasazlıq olduqda, siqaret çəkərkən diqqətsizlik etdikdə, uşaqlar alovla odla oynadıqda və s. hallarda real yanğın təhlükəsi yarana bilər.

Gəncə Regional Dövlət Yanğın Nəzarəti İdarəsi

Baş redaktor:
Elmar Əliyev
Telefon: (055) 803-03-17
(022) 215-52-83

Baş redaktorun müavini:
Sona İSMAYILOVA
Redaktor:
Sahib ƏHMƏDOV

Müxbir:
Təhminə MƏMMƏDOVA
Fotomüxbir:
Fəxrəddin ALIYEV

Redaksiyanın ünvanı:
Daşkəsən şəhəri, H.Əliyev prospekti 2. "Daşkəsən" qəzetinin hesab nömrəsi: Kapital Bank Daşkəsən filialı h/h 33080019448400214184, VÖEN 4900026031, İndeks 66896
Lisenziya № 022637

Qəzet 1999-cu ildən Mətbuat və İnformasiya Nazirliyində qeydiyyatdan keçib. Qeydiyyat № B437
Lisenziya seriya AB №022637.

Qəzet "Daşkəsən" qəzetinin kompüter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan Nəşriyyatı"nın mətbəəsində çap olunmuşdur.

Sifariş: 3759
Tiraj: 500